MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

## TƏSVİRİ SƏNƏT

**UOT 73**
**ORCID: 0009-0003-6935-8676**
**https://doi.org/10.52094/ZTER8024**

**Sevinc Ələsgərova Ələkbər qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**dissertant**
**sevaaleskerova62@gmail.com**

# XALQ RƏSSAMI MARAL RƏHMANZADƏNİN YARADICILIĞINDA QADIN OBRAZLARININ BƏDİİ XÜSUSİYYƏTİ

**Xülasə.** Məqalə Maral Rəhmanzadənin yaradıcılığında qadın obrazının formalaşması və inkişafını mərhələlər üzrə araşdırır və onun bu istiqamətdə gətirdiyi bədii yenilikləri elmi şəkildə ümumiləşdirir. Tədqiqat göstərir ki, Maral Rəhmanzadənin qadın obrazına yanaşması həm şəxsi müşahidələrdən, həm də dövrün ictimai-mədəni dəyişikliklərindən qaynaqlanan kompleks bədii sistemdir. Yaradıcılığının erkən dövründə qadın fiquru daha çox məişət həyatı və sosial keşməkeşlər kontekstində əks olunsa da, sonrakı illər onun daha dərin mənəvi və estetik məzmun qazanmasına gətirib çıxarmışdır. Rəssam müxtəlif texnikalarda qadın obrazına fərqli ifadə çalarları vermiş, fiqurun xarakterini xətt ritmi, plastika və rəng münasibətləri vasitəsilə müəyyən etmişdir. Xüsusilə 1960-cı illərdə yaratdığı əsərlərdə qadın obrazı həm ənənənin daşıyıcısı, həm də ictimai həyatın fəal iştirakçısı kimi ümumiləşdirilmiş bədii modelə çevrilir. Rəssamın “Azərbaycan qadınları”, “Qonaqkənd. Xalçaçılar.” və “Dağ kəndinin anaları” kimi silsilə əsərləri qadın obrazının həm əmək ritmini, həm də daxili sabitliyini göstərən təsirli kompozisiyalardır.

Maral Rəhmanzadə qadın obrazını Azərbaycan təsviri sənətində yeni estetik mərhələyə yüksəltmiş, bu obrazı həm sosial məzmun, həm psixoloji dərinlik, həm də bədii ümumiləşdirmə baxımından zənginləşdirmişdir.

**Açar sözlər:** Maral Rəhmanzadə, qrafika, yaradıcılıq, qadın obrazı, təsviri sənət

**Giriş.** Maral Rəhmanzadənin yaradıcılığında qadın obrazının araşdırılması təkcə konkret bir mövzunun deyil, bütövlükdə XX əsr Azərbaycan təsviri sənətində baş verən bədii proseslərin öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Onun qadın obrazına müraciəti yalnız mövzu seçimi kimi deyil, rəssamın insan və cəmiyyət münasibətləri haqqında düşündüklərinin bədii formaya çevrilməsi kimi dəyərləndirilir. Maral Rəhmanzadənin əsərlərində qadın obrazının təsviri ənənəvi məişət çərçivəsinin hüdudlarını aşaraq müxtəlif dövrlərdə dəyişən sosial anlayışlarla səsləşən zəngin semantik yük daşıyır. Qadın obrazının bu şəkildə təqdim olunması rəssamın həm müşahidə qabiliyyətinin, həm də peşəkar bədii dilinin inkişaf mərhələlərinin öyrənilməsi üçün geniş imkan yaradır. Onun əsərlərindəki qadın fiqurunun plastik quruluşu, kompozisiya içində tutduğu mövqe və rəng münasibətləri zamanla dəyişsə də, Maral Rəhmanzadənin təsvir etdiyi qadınları birləşdirən başlıca cəhət onların daxili tarazlıq və sabitliyə əsaslanan bədii modelə çevrilməsidir.

**Əsas hissə.** Maral Rəhmanzadənin yaradıcılığında qadın obrazı bədii düşüncənin həm mövzu, həm də ifadə sistemi səviyyəsində aparıcı xəttini müəyyənləşdirir. Onun qadın obrazına yanaşması həyat müşahidələri, ailə mühiti və sonradan aldığı akademik təhsil fonunda formalaşaraq zaman keçdikcə daha da zənginləşmişdir. Uşaqlıq illərində gördüyü qadın tipləri, daha geniş mənada desək, nənəsinin toxuculuqla məşğul olması, yaxın qohumların əmək ritmi, ailədaxili münasibətlərdə qadınların təmkinli davranışları onda obrazın özünəməxsus duruş nizamını və sabitlik anlayışını yaratmışdır. Bu erkən müşahidələr Maral Rəhmanzadənin qadın obrazlarını çox zaman sakit, düşüncəyə qapılmış, görünməz bir daxili ritm daşıyan obrazlar kimi təqdim etməsinə təsir etmişdir. Uşaqlıq xatirələrində formalaşan bu poetik təsəvvürlər illər sonra onun qrafik və rəngkarlıq dilində təmkin, ölçülülük və içdən gələn lirizm şəklində təzahür etmişdir.

Təhsil illərində qazandığı yaradıcılıq məharəti bu ilkin təsəvvürləri daha dərin bədii prosesə çevirmişdir. Surikov adına Moskva İncəsənət İnstitutunda aldığı akademik hazırlıq Maral Rəhmanzadənin fiqur quruluşuna ciddi yanaşmasını, plastikanın elmi əsaslarla işlənməsini və işıq-kölgə münasibətlərinin bədii funksiyasının dərindən dərk edilməsini təmin etmişdir. O, insan fiqurunun yalnız zahiri görünüşünü deyil, daxili aləmini, psixoloji vəziyyətini xətt ritmi və kompozisiya tarazlığı ilə ifadə etməyi öyrənmişdir. Həmin dövrdə formalaşan professional bədii duyum daha sonra qadın

obrazlarının həm psixoloji, həm də sosial məna yüklü təqdimatında mühüm rol oynamışdır.

1930-cu illərin sonu və 1940-cı illərin əvvəllərində yaratdığı "Kolxozçuların istirahəti" (1939) və "Azərbaycan qadını keçmişdə və bu gün" (1940) kimi silsilələrdə Maral Rəhmanzadə qadın obrazını ictimai həyatın dinamizmi fonunda təqdim edir. Bu əsərlərdə qadın yalnız bir fiqur deyil, müəyyən tarixi mərhələnin daşıyıcısı kimi göstərilir. *"1939-cu ildə kağız üzərində litoqrafiya texnikası ilə hazırladığı "Kolxozçuların istirahəti" əsərində uzaqda görünən dağların qovuşduğu mənzərə, ağac kölgəsində yerə döşənmiş xalça üzərində oturmuş qadınlar, yerdə qoyulmuş səhəng səhnəsi canlanır. Burada məncə əsas vurğu Maral Rəhmanzadənin sevərək yaratdığı zəhmətkeş qadın obrazlarıdır. Qəzet oxuyan, qucağında körpəsini əzizləyən əməksevər qadınlar. Aydındır ki, onlar iş əsnasında istirahət də edirlər. Geyim tərzləri, üzlərinin ifadəsi bu qadınları çox səmimi göstərir. Rəssamın öz qəhrəmanlarım sevərək yaratdığı bəlli olur"* [Əsədova, X., 2013, s.15].

"Azərbaycan qadını keçmişdə və bu gün" (1940) əsərində isə köhnə dövrün qapalı mühitində yaşayan qadının ağır tonlarda təsviri onun məhdudluğunu simvolizə edir, yeni dövrün qadınının işıqlı və geniş kompozisiyada təqdim edilməsi isə maariflənmənin gətirdiyi azadlığı və yeni həyat modelini əks etdirir. Rəssam burada sosial kontrastı dramatik üsullarla deyil, plastika və kolorit vasitəsilə göstərərək tarixilik hissini bədii bir dildə ifadə edir. Bu yanaşma qadın obrazının artıq sırf məişət kontekstindən çıxaraq daha geniş ictimai hadisənin hissəsinə çevrilməsini təmin edir.

Maral Rəhmanzadənin yaradıcılığında qadın obrazları içərisində onun avtoportretləri də xüsusi yer tutur. Bu mövzu xüsusilə onun gənclik illərindən etibarən bədii axtarışlarının mühüm istiqamətinə çevrilmişdir. Rəssamın 1948-ci ildə kətan üzərində yağlı boya texnikasında yaratdığı avtoportret özünüdərkin səmimi və təmkinli ifadəsi kimi diqqət çəkir. Fiqurun ayaq sərbəst duruşu, sadə geyim və şlyapanın yaratdığı zərif siluet gənc yaradıcı şəxsiyyətin xarakterini dəqiq əks etdirir və əsəri həmin dövrün yaddaşına çevirir.

Avtoportretə maraq rəssamın 1941-ci ildə çəkilmiş "Təhsil almaq hüququ" əsərində də müşahidə olunur. İnstitut emalatxanasında naturadan çalışan tələbələrin təsvir edildiyi bu kompozisiyada Maral Rəhmanzadə özünü də fiqurlar arasında yerləşdirmişdir. Yumşaq tonallıqla işlənmiş interyer həm tədris mühitinin sakit ritmini, həm də müşahidənin dəqiqliyini ifadə edir.

Qadının maarifləndirici fəaliyyətinə dair 1941-ci ildə yaratdığı "Təhsil almaq hüququ" əsəri onun qadın taleyinə baxışını daha da genişləndirir. Burada qadın, müəllim və tələbələr arasında heç bir iyerarxiya yoxdur. Fiqurların hər biri prosesin bərabər iştirakçısı kimi qurulur. Rəssamın bu əsərdə utopik deyil, real və nizamlı kompozisiya qurması qadının ictimai həyata təbii şəkildə daxil olmasını göstərir. Fiqurun plastikasındakı ölçülülük, üz cizgilərindəki sakitlik və kompozisiyanın tarazlığı qadının yeni sosial rolunu həm təvazökar, həm də əminliklə ifadə edir.



***Maral Rəhmanzadə. "Avtoportret". 1948. Kətan, yağlı boya, 90x70 m.***

Maral Rəhmanzadə sonrakı illərdə də öz simasına müraciət edir və avtoportret janrından həm şəxsi müşahidə, həm də bədii forma üzərində təcrübə vasitəsi kimi istifadə edir. Bu janr onun yaradıcılığında sənətkarın inkişaf mərhələlərini izləməyə imkan verən davamlı və əhəmiyyətli bir istiqamət olaraq qalır.

1940-1950-ci illərin qrafika yaradıcılığında qadın obrazı ictimai fəaliyyətin fəal iştirakçısı kimi təsvir olunmağa davam edir. "Qadın ansamblının

çıxışı" (1940) əsərində qadın obrazlarının toplu şəkildə təqdimatı onların ictimai proseslərdə söz sahibi olmağa başladığını göstərir. Bu kimi əsərlərdə hərəkətlərin sadəliyi və geyim detalının minimuma endirilməsi təsvirə sənədli xarakter verir. Rəssamın məqsədi qadını qəhrəmanlaşdırmaq deyil, onun həyatdakı yeni mövqeyini təbii müşahidə əsasında əks etdirməkdir. Obrazların hər birində görünən özünəinam, baxışların ciddiliyi və duruşun sabitliyi qadınların həmin dövrdəki sosiallaşmağa necə adekvat cavab verdiyini nümayiş etdirir.

Qadın obrazının bədii-estetik baxımdan daha dərin işlənməsi 1962-1963-cü illərin "Azərbaycan qadınları" silsiləsində özünü göstərir. Bu silsilə demək olar ki, Maral Rəhmanzadənin qadın obrazına münasibətdə əldə etdiyi bədii ümumiləşdirmənin zirvəsidir. Burada qadın fiquru həm ənənə daşıyıcısı, həm də zamanın mahiyyətini özündə cəmləyən obraz kimi təqdim olunur. Geyimlərin üzərindəki naxışlar yalnız bəzək elementi deyil, fiqurun xarakterinə uyğunlaşdırılmış ritmik səthlərdir. Örpəklərin incə xətlə verilib üz cizgilərini qismən örtməsi qadının həm mühafizəkar, həm də təmkinli təbiətini vurğulayır. Koloritin sakitliyi, fonun neytrallaşdırılması və baxışların bir nöqtəyə yönəlmiş toparlanmış ifadəsi qadın obrazını həm mənəvi dayaq nöqtəsi, həm də estetik bütövlük kimi təqdim edir.

Qadın əməyinin bədii təcəssümündə Maral Rəhmanzadənin "Qonaqkənd. Xalçaçılar" (1964) pastel işləri xüsusi yer tutur. Bu əsərdə qadınların təkrar olunan hərəkətlərdən ibarət əmək ritmi kompozisiyanın əsas strukturunu təşkil edir. Başların paralel xətt boyunca düzülməsi, çiyin-bel xəttinin yumşaq plastika ilə verilməsi onların ortaq iş prosesindəki harmoniya və səbirli əmək ritmini ifadə edir. Pastelin yumşaq toxuması fiqurların daxili sakitliyinə uyğun gəlir və kompozisiyanın emosional yükünü daha da dərinləşdirir. Maral Rəhmanzadə burada qadının gündəlik əməyini onun həyatdakı davamlı rolunun təbii ifadəsi kimi göstərir.

Qadın obrazının monumental xarakter aldığı "Dağ kəndinin anaları" (1964) əsərində fiqurlar geniş geyim səthləri ilə kompozisiyanın əsas aparıcı elementinə çevrilir. Ornamentin ritmik strukturu fiqurun sakit, lakin möhkəm duruşunu gücləndirir və ana obrazının nəsillərarası ardıcıllıq ideyasına bağlanmasına xidmət edir. Rəssam burada ana fiqurunu sentimental vurğulardan uzaq saxlayır, yalnız duruşun plastikasına və kompozisiya tarazlığına əsaslanaraq onun mədəni və mənəvi rolunu ifadə edir. Daha dəqiq desək, *"Maral*

*Rəhmanzadə qadın qədd-qamətinin gözəlliyini vurğulayan milli geyim çəkməyi, daha doğrusu "yazmağı" sevirdi. Onun kənd qızları təmtəraqla bəzənmiş və qəşəngdirlər. Parlaq xəfif axınlı ətəklər, incə bellər, sərv qamətlər vurğulanır. Ənənəvi hörmə naxışlı ipək kəlağayı yumşaq büküklərlə çiyinlərə düşür. Zərgər qızı – Maral xanım milli geyimi tamamlayan ənənəvi zinət əşyalarını bacarıqla çəkirdi. O, qadın gözəlliyinin özəl bir kanonunu yaratmış oldu – onun gözəlləri uzadılmış proporsiyalı və çinar qamətlidir, onlar seyrçinin nəzərində məğrur və azad qadınlardır. Məhz bu əsərlərdə rəssamın iç dünyasında özünə yer eləmiş və uşaqlıqdan içinə hopmuş ornamental mentallıq özünü büruzə verir."* [Məlikova, Ş., 2011, s. 113]. Bu mənada rəssamın "Rəfiqələr", "İşdən sonra", "Qəzet oxuyarkən", "Lənkəran qızlarının rəqsi" və "Dağlı qızlar" əsərlərini xüsusilə qeyd etmək olar.

1950-1960-cı illərdə "Azərbaycan nağılları" kitabına hazırladığı illüstrasiyalarda qadın obrazları nağıl estetikasının poetikliyini daşıyan simvollara çevrilir. Bu illüstrasiyalarda fiqur plastikasının yüngüllüyü, xəttin incəliyi və kompozisiyanın sadə ritmi qadın obrazını daha zərif və ümumiləşdirilmiş formada təqdim edir. Maral Rəhmanzadə burada qadını real həyatın təsviri kimi deyil, nağıl poetikasının zərif personajı kimi ifadə edir.

1960-1970-ci illərin litoqrafiya və linoqravür işlərində qadın obrazı daha dinamik xarakter qazanır. "Bizim qızlar" silsiləsindən olan "Qızıl əllər" (1971) əsərində xəttin ritmikliyi, konturun qətiyyəti və kompozisiyanın yığcamlığı qadının əmək prosesindəki ritmi və gücünü xarakterizə edir. Ümumiyyətlə rəssamın bu mövzuda olan əsərlərində qadın həm iradəli, həm də zərif plastika daşıyıcısı kimi göstərilir.

Maral Rəhmanzadənin qadın obrazı yaradıcılığının demək olar ki, bütün mərhələlərində həm plastik, həm koloristik, həm də məzmun baxımından davamlı və ardıcıl inkişaf xətti nümayiş etdirir. Onun qadın fiqurları təmkinli duruş, baxışların düşüncəli ifadəsi, geyim ritminin fiqur xarakterinə uyğunlaşdırılması və emosional yüklənmədən istifadə olunan rəng tarazlığı ilə seçilir. Maral Rəhmanzadə qadını nə idealizə edir, nə də məişət çərçivəsinə həddindən artıq bağlayır; o, qadını zamanın dəyişkən şəraitində özünü dərk edən, əmək və ənənə daşıyan, həm fərdi, həm də kollektiv təcrübənin ifadəçisi kimi təqdim edir. Bu yanaşma Maral Rəhmanzadənin qadın obrazını Azərbaycan təsviri sənətində özünəməxsus və qalıcı estetik kateqoriyaya çevirmişdir.

**Nəticə.** Aparılan təhlil göstərir ki, Maral Rəhmanzadənin qadın obrazına gətirdiyi bədii yanaşma Azərbaycan təsviri sənətində yeni bir baxış sisteminin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Rəssamın müxtəlif illərdə yaratdığı əsərlərdən aydın olur ki, o, qadın fiqurunu yalnız gündəlik həyatın daşıyıcısı kimi deyil, həm də zamanın mədəni, sosial və mənəvi strukturlarını əks etdirən çoxşaxəli bir obraz kimi qavrayır. Maral Rəhmanzadə qadın obrazını dramatik yüklə şərtləndirmədən, sadə plastika və təmkinli kolorit vasitəsilə onun əsas xüsusiyyətlərini üzə çıxarmağa üstünlük verir. Bu, qadın obrazının həm emosional, həm də estetik baxımdan təmiz və aydın təqdim olunmasına səbəb olur. Rəssamın əsərlərində qadın obrazı heç vaxt tək funksiyalı təsvirə çevrilmir, o, hər zaman müəyyən bir mühitin, həyat ritminin və insanlararası münasibətlərin bədii ifadəçisi kimi çıxış edir. Beləliklə, Maral Rəhmanzadənin qadın obrazına münasibəti onun yaradıcılığında bütöv bir konseptual sistem formalaşdırmış, bu obrazı Azərbaycan təsviri sənəti tarixində davamlı tədqiqat predmeti olacaq səviyyəyə yüksəltmişdir.

## Ədəbiyyat siyahısı

1. Əfəndi R. (2007). Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb.
2. Əsədova X. (2013). Maral Rəhmanzadə. Qrafika, rəngkarlıq. Bakı: Şərq-Qərb.
3. Məlikova Ş. (2011). Maral Rəhmanzadə. Rəngkarlıq və qrafika. Bakı: Şərq-Qərb.
4. Vahabova D. (2024). Azərbaycan təsviri incəsənəti. Milli xəzinə. Bakı: TLM.

**Sevinj Alasgarova Alakbar gizi**

## Artistic Characteristics of Female Images in the Creativity of People's Artist Maral Rahmanzade

**Summary.** The article examines the formation and development of the female image in the creativity of Maral Rahmanzade and scientifically summarizes the artistic innovations she brought in this direction. The study shows that Maral Rahmanzadeh's approach to the female image is a complex artistic system stemming from both personal observations and socio-cultural changes of the time. Although in the early period of her creativity, the female figure was reflected more in the context of everyday life and social upheavals,

the following years led to its acquisition of a deeper spiritual and aesthetic content. The artist gave the female image different shades of expression in various techniques, and determined the character of the figure through the rhythm of the line, plasticity and color relations. Especially in the works she created in the 1960s, the female image becomes a generalized artistic model as both a bearer of tradition and an active participant in social life. The artist's series of works such as “Women of Azerbaijan”, “Guest Village. Carpet Weavers” and “Mothers of the Mountain Village” are impressive compositions that show both the rhythm of labor and the internal stability of the female image.

Maral Rahmanzade raised the image of women to a new aesthetic stage in Azerbaijani fine art, enriching this image in terms of social content, psychological depth, and artistic generalization.

**Key words:** Maral Rahmanzadeh, graphics, creativity, female image, fine art

**Алескерова Севиндж Алекбер кызы**

**Художественные особенности женских образов в творчестве народной художницы Марал Рахманзаде**

**Резюме.** В статье рассматривается поэтапное становление и развитие женского образа в творчестве Марал Рахманзаде, а также научно обобщаются её художественные новации в этом направлении. Исследование показывает, что подход Марал Рахманзаде к женскому образу представляет собой сложную художественную систему, вытекающую как из личных наблюдений, так и из социально-культурных изменений того времени. Хотя в ранний период её творчества женская фигура отражалась скорее в контексте повседневной жизни и общественных потрясений, последующие годы привели к её обретению более глубокого духовного и эстетического содержания. Художница придала женскому образу различные оттенки выразительности в различных техниках, а характер фигуры определила через ритм линии, пластику и цветовые соотношения. Особенно в работах 1960-х годов женский образ становится обобщенной художественной моделью, выступая одновременно и носителем традиций, и активным участником общественной жизни. Такие серии работ художницы, как «Женщины Азербайджана», «Гостевое село. Ковроткачи» и «Матери горного села»,

представляют собой впечатляющие композиции, демонстрирующие как ритм труда, так и внутреннюю устойчивость женского образа.

Марал Рахманзаде подняла образ женщины на новый эстетический уровень в азербайджанском изобразительном искусстве, обогатив его социальным содержанием, психологической глубиной и художественным обобщением.

**Ключевые слова:** Марал Рахманзаде, графика, творчество, женский образ, изобразительное искусство

Məqalənin redaksiyaya daxilolma tarixi: 08.1.2025
Məqalənin çapa qəbul olunma tarixi: 10.09.2025